"Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin
16.01.2024-cü il tarixli 3-46-1/3-1-8/2024 №-li əmri ilə
təsdiq edilmişdir.

**Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən göstərilən sertifikatlaşdırma xidmətinin tarif cədvəli**

| **Kateqoriya/ dərəcə** | **İlkin ödəniş tarifi** | | **Sertifikatın tarifi** | | | | **Təkrar qiymətləndirmə tarifi** | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **Sabit tarif** | | **Bir nömrə üçün tarif** | | | |
| | Bakı şəhəri/ Rezort mehmanxanalar | Digər regionlar | Bakı şəhəri/ Rezort mehmanxanalar | Digər regionlar | Bakı şəhəri/ Rezort mehmanxanalar | Digər regionlar | Bakı şəhəri/ Rezort mehmanxanalar | Digər regionlar |
| **5 ulduz** | | | | | | | | |
| Standart | 600 | | 5175 | 3623 | 41 | 31 | 700 | |
| Superior | | | 6210 | 4347 | 45 | 38 | | |
| **4 ulduz** | | | | | | | | |
| Standart | 600 | | 4140 | 2898 | 35 | 24 | 700 | |
| Superior | | | 4968 | 3478 | 38 | 28 | | |
| **3 ulduz** | | | | | | | | |
| Standart | 600 | | 3450 | 2415 | 28 | 21 | 700 | |
| Superior | | | 3968 | 2777 | 31 | 23 | | |
| **2 ulduz** | | | | | | | | |
| Standart | 600 | | 2760 | 1932 | 21 | 14 | 700 | |
| Superior | | | 3312 | 2318 | 24 | 17 | | |
| **1 ulduz** | | | | | | | | |
| Standart | 600 | | 2760 | 1932 | 21 | 14 | 700 | |
| Superior | | | 3312 | 2318 | 24 | 17 | | |

Qeydlər:

* Qiymətlərin valyutası manatdır;

* Qiymətlərə ƏDV daxil deyil;

* “Bakı şəhəri/Rezort mehmanxanalar” dedikdə Bakı şəhəri üzrə mehmanxanalar və respublika ərazisi üzrə bütün rezort mehmanxanalar nəzərdə tutulur.

* “Digər regionlar” dedikdə Bakı şəhəri xaric digər regionlardakı mehmanxanalar nəzərdə tutulur.

* Sertifikatın tarifi üzrə ödəniş 3 il müddətində annuitet qaydada, ildə bir dəfə olmaqla həyata keçirilir.

* Apellyasiya zamanı təkrar qiymətləndirmənin aparılması zərurəti yarandığı halda tarif cədvəlinə uyğun olaraq ödəniş həyata keçirilir. Apellyasiyanın nəticəsinin müraciət edən tərəfin lehinə olması halında edilən ödəniş mehmanxanaya geri qaytarılır. Digər halda isə sertifikatlaşdırma orqanında qalır.

* Sertifikatlaşdırma orqanının ulduz dərəcəsinin təyin edilməsinə dair müvafiq qərarı qəbul edildikdən sonra sertifikatın tarifi aşağıdakı qaydada hesablanır:

$$ST = S + N \times NS$$

Burada,
ST - Sertifikatın tarifi
S - Sabit tarif
N - Nömrə tarifi
NS - Mehmanxanada təqdim edilən nömrələrin sayı

*Sertifikatın tarifinə uyğun olaraq hesablanmış illik ödəniş birinci il və növbəti illərdən asılı olaraq, aşağıdakı qaydada hesablanır:

Birinci il:

$$\text{İST}=ST/3-\text{İÖ}$$

Növbəti illər:

$$\text{İST}= ST/3$$

Burada,
İST - İllik sertifikat tarifi
ST - Sertifikatın tarifi
İÖ – İlkin ödəniş

* Sifarişçinin istəyinə uyğun olaraq sertifikatın tarifinin birdəfəlik ödənilməsi mümkündür.

* Qiymətlərə auditorların mehmanxanada gecələməsi xərcləri daxil deyildir.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**
**“AZƏRBAYCAN TURİZM BÜROSU” PUBLİK HÜQUQİ ŞƏXSİ**

# ƏMR

**3 iyul 2024-cü il** **3-46-1/3-1-229/2024**

## “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən göstərilən uyğunluğun qiymətləndirilməsi üzrə sertifikatlaşdırma xidmətinin qiymətinin tənzimlənməsi barədə” “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin 2024-cü il 16 yanvar tarixli 3-46-1/3-1-8/2024 nömrəli əmrində dəyişiklik edilməsi barədə

“Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin Nizamnaməsinin 4.2.7.6-cı yarımbəndini rəhbər tutaraq **əmr edirəm:**

1. “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən göstərilən uyğunluğun qiymətləndirilməsi üzrə sertifikatlaşdırma xidmətinin qiymətinin tənzimlənməsi barədə” “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxsin 2024-cü il 16 yanvar tarixli 3-46-1/3-1-8/2024 nömrəli əmrində aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin əmrin 1-ci hissəsi ilə təsdiq edilmiş “Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən göstərilən sertifikatlaşdırma xidmətinin tarif cədvəli”nin “Qeydlər”inin hissələrində “*” işarələri müvafiq olaraq 1-dən 10-dək ardıcıl ərəb rəqəmləri ilə nömrələnsin və aşağıdakı məzmunda 11-13-cü hissələr əlavə edilsin:

“11. Uyğunluq sertifikatının qüvvədə olma müddətinin bitməsi ilə əlaqədar yenidən sertifikatlaşdırma üçün müraciət edən mehmanxananın ulduz kateqoriyaları üzrə uyğunluğunun qiymətləndirilməsi prosesinə həmin mehmanxana ona sonuncu dəfə təyin edilmiş ulduz dərəcəsinə uyğun olaraq hesablanan sertifikat tarifi üzrə illik ödənişi həyata keçirdikdən sonra başlanılır. Bu halda Sifarişçidən ilkin ödənişin deyil, sertifikat tarifi üzrə illik ödənişin həyata keçirilməsi tələb edilir.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ “AZƏRBAYCAN TURİZM BÜROSU” PUBLİK HÜQUQİ ŞƏXSİ
İmzalayan şəxs: Florian Sengstschmid / Rəhbərlik / İdarə Heyətinin sədri

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/ec3cNjYs42oO6fN5t8tcDtRLlL5rEQjzpH2QDLgBNwA%3D

12. Yenidən sertifikatlaşdırma zamanı mehmanxananın ulduz kateqoriyaları üzrə uyğunluğunun qiymətləndirilməsi nəticələrinə uyğun olaraq, Sifarişçiyə əvvəl təyin edilmiş ulduz dərəcəsindən aşağı və ya yüksək ulduz dərəcəsinin təyin edildiyi hallarda sertifikat tarifi yenidən hesablanır və Sifarişçi tərəfindən ödənilmiş məbləğin əskik və ya artıq ödənilmiş olması müəyyən edildiyi təqdirdə, həmin məbləğ Sifarişçi ilə razılaşdırılaraq növbəti ilin sertifikat tarifi üzrə illik ödənişinin üzərinə gəlinməsi və ya çıxılması yolu ilə əvəzləşdirilir.

13. Təqdim edilən nömrə sayı 250-dən çox olan mehmanxanalara münasibətdə sertifikat tarifi aşağıdakı qaydada hesablanır:

$$ST = S + N \times 250$$

Burada,
ST – Sertifikat tarifi
S – Sabit tarif
N – Nömrə tarifi”.

1.2. həmin əmrin 2-ci hissəsində “tarifləri” sözündən sonra “(yenidən sertifikatlaşdırma üçün müraciət edən mehmanxanalar istisna olmaqla)” sözləri əlavə edilsin.

2. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**İdarə Heyətinin sədri** **Florian Sengstschmid**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ “AZƏRBAYCAN TURİZM BÜROSU” PUBLİK HÜQUQİ ŞƏXSİ
İmzalayan şəxs: Florian Sengstschmid / Rəhbərlik / İdarə Heyətinin sədri

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/ec3cNjYs42oO6fN5t8tcDtRLIL5rEQjzpH2QDLgBNwA%3D